*Tural ŞİRİYEV* *

# AZƏRBAYCANDA NİKAHIN ƏNƏNƏVİ FORMALARINDA İSLAMIN ROLUNA DAİR

**Açar sözlər:** ailə, nikah, islam, ənənə, monoqam, poliqam
**Key words:** family, marriage, islam, tradition, monogamy, polygamy
**Ключевые слова:** семья, брак, ислам, традиции, моногамии, полигамии

Cəmiyyətin tarixi inkişafının müxtəlif mərhələlərində nikah, tarixi kateqoriya kimi müxtəlif formalar kəsb etmiş və buna uyğun olaraq ailənin formaları mövcud olmuşdur. Dünyanın bütün xalqları kimi, Azərbaycan xalqı da özünün ailə-nikah ənənələrinin formalaşmasında məhz belə inkişaf yolunu keçmişdir.

Azərbaycan etnoqrafiyasında XIX-XX əsrin əvvəllərində ailədə mövcud olan nikah münasibətlərinin şərh edilməsində və nikahla bağlı anlayışlarda uzun illər müəyyən dolaşıqlıq mövcud olmuşdur. Bu dolaşıqlığın səbəbləri araşdırılaraq, bəhs olunan dövrdə azərbaycanlıların ailə-nikah münasibətləri haqqında məlumatlar vermiş xarici müəlliflərin mülahizələrində mövcud olan fikir müxtəliliyi ilə əlaqələndirilmişdir [8, s.120]. H.Quliyev ailənin tarixi formalarını araşdırarkən kiçik ailəni monoqam (təkkəbinlilik) anlayışı ilə ifadə etmişdir [10, s.5]. H.Həvilov da əsərində eyni mülahizəni irəli sürür [4, s.198-199]. Halbuku, monoqamiya nikah forması olmaqla böyük ailələr üçün də xarakterik olmuşdur. Q.Qeybullayev isə ibtidai icma cəmiyyətinə xas olan endoqam (qəbilədən kənar nikahın qadağan olunması) və ekzoqam (qohumlar arasında nikahın qadağan olunması) nikahları müasir Azərbaycan ailə məişətində nikah qaydaları kimi qəbul edir. Lakin Orta əsrlərdə olduğu kimi, XIX əsrdə də nikah adətləri istər qohumla evlənməyə, istərsə yad nəsillə nikaha qəti qadağa qoymadığı üçün [15, s.310-311] Azərbaycan etnoqrafiyasında belə anlayışlar arxaik hesab edilməlidir. Q.Rəcəbli də məsələlərin bu cür qoyuluşu ilə razılaşmayaraq, Azərbaycanda nikah münasibətlərinin aşağıda verilən tasnifatını qəbul edir: nikah formaları – monoqamiya və poliqamiya, nikah adətləri – qohumla evlənmə, levirat və sororat, nikah üsulları – elçilik, nişan, toy və qoşulub qaçma [15, s.308]. Fikrimizcə,

* **Şiriyev Tural** - AMEA Milli Azərbaycan Tarixi Muzeyi, t.ü.f.d., tural.shiriyev@mail.ru





belə bir təsnifat Azərbaycanda ənənəvi nikah münasibətlərinin forma və məzmununu daha doğru şəkildə ehtiva edir.

Azərbaycan ərazisində qədim dövrün nikah formaları haqqında təsəvvürlər zəngin deyil və demək olar ki, e.ə. I əsrin sonu – eramızın I əsrinin əvvəllərində yaşamış yunan coğrafiyaşünası Strabonun əsərində verilən cüzi məlumatlarla məhdudlaşır. Belə ki, qaynaqda Mada (Midiya) əhalisi arasında poliqamiya (çoxarvadlılıq) nikah formasının geniş yayıldığı haqqında məlumat verilir [8, s.121]. VII əsrdə yaşamış Alban salnaməçisi M.Kalankatuklu isə "Alban tarixi" əsərində məlumat verir ki, 488-ci ildə Aquen kilsə məclisində elan edilən qanunlara əsasən "kim öz arvadını səbəbsiz boşayıb ikinci arvadla kəbinsiz yaşayırsa, ...işgəncələrdən sonra ölüm cəzasına məhkum olunmalıdır" [5, s.73]. Göründüyü kimi, kilsə qanunu monoqamiyanı məcburi elan etməmişdir, sadəcə olaraq qeyri-rəsmi, əsaslandırılmamış təkrar və kortəbii nikahları qadağan etmişdir. Hər halda, belə bir qadağanın olması IV əsrdə xristianlığın qəbul edilməsinə qədər Albaniyada poliqamiyanın mövcudluğu ehtimalının [8, s.121] doğruluğuna əsas verir. Belə bir ehtimal da mümkündür ki, Aquen qanunu sonrakı dövrlərdə poliqamiyanı tədricən sıxışdırmış və beləliklə də, əhali arasında monoqam nikah formasının geniş yayılmasına zəmin yaratmışdır. Sonrakı əsrlərdə də əhali arasında monoqamiyaya rəğbətin olmasını "Kitabi-Dədə Qorqud" dastanında müşahidə etmək olur. Dastanda Dirsə xan övladı olmayan arvadını "bəxtimə çıxan qadınım" adlandıraraq ikinci nikaha yol verməkdən çəkinir [6, s.17-18].

Azərbaycanda islam dininin qəbul edilməsi ictimai-sosial münasibətlərdə köklü dəyişikliklərə yol açdığı kimi, ailə-nikah münasibətlərinə də ciddi təsir etdi. Əhali arasında dini ideologiyanın güclü olduğu orta əsrlər dönəmində islam ehkamları məhz ailə məişətində daha çox ifadə tapırdı. Bunun başlıca səbəbi insanların dünyagörüşünün mərkəzində instinkt olaraq yer alan iki müqəddəs dəyər – din və ailə amilinin qərar tutması ilə bağlı idi. Məhz buna görədir ki, bəşər tarixinin bütün dövrlərində insanların həyatında məhz ailə-nikah münasibətləri onların dini ideologiyası ilə əsasən həmahəng olmuşdur.

İslamın qəbul edilməsindən sonrakı əsrlərdə yaşayıb-yaratmış Azərbaycanın şair və yazıçılarının əsərlərində, o cümlədən, şifahi xalq yaradıcılığı nümunələrində monoqam, bəzi hallarda isə poliqam nikah forması

haqqında məlumatlar vardır. Məsələn, "Koroğlu" dastanında Koroğlu ilə Nigar xanımın övladlarının olmamasına baxmayaraq, Koroğlu Eyvazı oğulluğa götürməklə kifayətlənir və təkrar nikaha yol vermir [7, s.93]. M.Füzulinin "Leyli və Məcnun" poemasında da Məcnunun dilindən söylənən aşağıdakı misralarda da monoqam nikah tərənnüm edilir:

Xosrov degiləm ki, mənə dilbər
Şirin ola gah, gah Şəkkər! [12, s.80].

Qeyd etdiyimiz kimi, bir sıra bədii ədəbiyyat nümunələrində, dastanlarda poliqam nikahlardan da söz açılır. Belə ki, N.Gəncəvinin "Xosrov və Şirin" poemasında Xosrov Şirini sevdiyi halda, Rum elində Məryəmlə [14, s.146], İsfahanda isə Şəkərlə evlənir [14, s.229]. Bundan başqa "Şah İsmayıl", "Əmrah", "Lətif şah" və "Valeh-Zərnigar" dastanlarında da qəhrəmanlar sevgililərinə qovuşana qədər başqa qızlarla nikah münasibətlərinə daxil olurlar [15, s.308]. Belə məlumatlar Orta əsrlərdə Azərbaycanda poliqamiyanın az-çox mövcud olduğunu göstərir ki, bunu da tamamilə islamaqədərki dövrün qalığı hesab etmək doğru olmaz. Çünki, cəmiyyətlə ailə arasında üzvi bağlılıq ictimai proseslərin ailə münasibətlərinə bilavasitə təsir etməsini şərtləndirir ki, əsrlər ərzində cəmiyyətin dünyagörüşündə, ictimai-ideoloji həyatında baş verən köklü dəyişikliklər nikah formalarının gələcək dövrlər üçün qalıq kimi saxlanmasına mane olur. Digər tərəfdən, yuxarıda qeyd etdiyimiz kimi, insanların ailə və dini prinsiplərə instinkt bağlılıqları ailə-nikah münasibətlərinin də onların məhz inanc sistemlərinin tələblərinə uyğun olaraq tənzimlənməsini şərtləndirmişdir. Başqa sözlə desək, "Orta əsrlərdə ailə münasibətlərində Qurani-Kərimdən gələn mühüm mülahizələr əsas götürülürdü" [1, s.305] - deyə, çoxkəbinlilik qədim dövrdə Azərbaycanda müəyyən qədər yayılmış nikah forması olmuşsa da, islam dinin qəbul edilməsindən sonrakı dövrlərdə tədricən ənənəvi xarakterini itirmiş və başlıca olaraq, dini qaydalara əsaslanmaqla qəbul edilmişdir. Ötən əsrlərə qədər poliqamiyanın keçmişin qalığı kimi mövcud olduğunu hesab edən Q.Qeybullayev isə XIX əsrdə bu nikah formasının, başlıca olaraq, şəhər yerlərində yaşayan ruhanilər arasında yayıldığını əsas gətirərək, onun saxlanmasında islam dininin də müəyyən rol oynadığını qeyd edir [8, s.122]. Halbuki, elə bu faktın özü və yuxarıda qeyd etdiyimiz mülahizəyə əsasən ehtimal etmək olar ki, poliqamiya keçmişin qalığı deyil, məhz islamın müəyyən etdiyi qaydalara əsasən mövcud olmuşdur.





Qeyd etmək lazımdır ki, islam poliqam nikaha xüsusi rəğbətlə yanaşmadığı kimi, tarixən əhali arasında çoxkəbinlilik də geniş yayılmamışdır. Başqa sözlə desək, çoxkəbinlilik Azərbaycan ailəsinin mənəvi, etik mühiti ilə müəyyən mənada ziddiyyət təşkil etmiş, adətən müsbət hal kimi qarşılanmamışdır.

Poliqamiyanı doğuran səbəblər haqqında tarixi ədəbiyyatda müxtəlif mülahizələr mövcuddur. XIX əsrə aid olan mənbədə qeyd edilir ki, poliqam nikahın əsas səbəblərindən biri yuxarı təbəqədən olan ailələrin öz ictimai mövqelərini daha da möhkəmləndirmək cəhdləri ilə bağlı idi [19, s.126]. Eyni səbəblər əsasında XIX əsrin sonlarına qədər poliqam nikah forması Azərbaycanın maldar əhalisinin başçıları arasında isə hətta adi hal kimi qəbul edilirdi [9, s.69].

Doğrudur, islam ailə hüququ hər bir müsəlman kişiyə dörd arvad almağa icazə verdiyi üçün poliqamiya dini ehkamlara zidd deyildir. Lakin islam şəriəti yalnız müəyyən şərtlər daxilində poliqamiyaya icazə vermişdir. Yəni, şəriət baxımından o müsəlman kişinin birdən artıq arvad alması məqbul sayıla bilər ki, fiziki və maddi imkanlarından başqa, qarşılıqlı münasibətlər, ailənin idarə olunması və ailə hüququnun digər məsələlərində ədalətli olmaqla, nikaha girdiyi qadınlar arasında ayrı-seçkiliyə yol verməsin. Poliqamiyanın vacib sayılan məhz belə cəhətləri nəzərə alınaraq müqəddəs Qurani-Kərimin Nisa surəsinin 3-cü ayəsində deyilir: "Əgər yetim qızlarla (evlənəcəyiniz təqdirdə) ədalətlə rəftar edə bilməyəcəyinizdən qorxarsınızsa, o zaman sizə halal olan başqa qadınlardan iki, üç və dörd nəfərlə nikah bağlayın! Əgər (onlarla) ədalətlə dolanmağa əmin deyilsinizsə, o halda təkcə bir nəfər (azad) qadın və ya sahib olduğunuz kənizlə evlənin! Bu, ədalətli olmağa (ədalətdən kənara çıxmamağa) daha yaxındır!". Göründüyü kimi, islam ailə hüququ yalnız müəyyən humanist qaydalar çərçivəsində və müəyyən sosial səbəblərin meydana gəldiyi hallarda poliqamiyanın həyata keçirilməsini məqbul hesab etmişdir. Lakin etnoqrafik materiallar isə göstərir ki, keçmişdə nikah prosesinin şəriətlə nizamlanmasına baxmayaraq, əksər hallarda əhalinin poliqam nikaha meyl etməsi mənəvi deyil, daha çox iqtisadi, siyasi, yaxud da kortəbii instinkt meyllərə bağlı olmuş və ona görə də bir çox hallarda ailədaxili qarşıdurmalara yol açmışdır. Yəni, təkrar nikaha daxil olan kişi onun zəruri sosial, mənəvi tələblərini nəzərə almadığı üçün, onun ilkin nikahı əksər hallarda formal xa-

rakter daşıyırdı, bəzən də boşanma ilə nəticələnirdi. Məlumatçıların qeyd etdiyi kimi, belə məqsədlərlə təkrar evlənən imkanlı kişilər çox vaxt əvvəlki nikahından olan qadın və uşaqlarına laqeyd münasibət bəsləyir, uzun müddət onlardan ayrı dolanır və onları qayğıdan məhrum edirdilər. Ona görə də, ikinci arvad almaq yaxşı qəbul edilmirdi.

Etnoqrafik mənbələrə əsasən Azərbaycan ailəsində poliqam nikah formasını yaradan səbəblərdən biri də levirat nikahla, yəni, dul qalmış qadınla onun qaynı arasında kəbin kəsilməsi adəti ilə bağlı olmuşdur. Azərbaycanın ənənəvi ailə məişətində çox da geniş yayılmayan levirat adətinə görə, azyaşlı uşaqları olan qardaş vəfat etdikdə, başsız qalan uşaqların qayğıya ehtiyacını nəzərə alaraq, ilk növbədə onun subay qardaşı mərhumun dul qalmış arvadı ilə nikaha daxil olurdu. Bəzi hallarda belə adəti mərhumun evli qardaşı da həyata keçirərdi. Bu isə artıq poliqam nikah demək idi. Qeyd edək ki, etnoqrafiya elmində kişinin arvadı öldükdən sonra yenidən nikaha daxil olması da monoqam nikah hesab edilir. Poliqamiya isə elə bir nikah formasıdır ki, burada kişi eyni zamanda iki və daha çox qadınla nikah münasibətlərinə daxil olur. Çöl-etnoqrafik materiallar təsdiq edir ki, məhz bu səbəbdən yaranan ikiarvadlılıq ailə həyatında, eləcə də, camaat arasında ciddi narazılıqla qarşılanmırdı. Lənkəran rayonunun Haftoni qəsəbəsində yaşayan Tağıyeva Şahbacı Əşi qızına görə, belə nikahlar qarşılıqlı məhəbbət hisslərinə əsaslanmadığı üçün keçmiş qayınarvadlarının qısqanclığına səbəb olmur və çox vaxt ər-arvad münasibətləri baxımından formal xarakter daşıyırdı. Lakin bəzi hallarda levirat nikahı doğuran amillər maddi mülahizələrlə bağlı ol-muş və başlıca olaraq, varlı ailələrdə mərhumun əmlakına sahib çıxmaq məqsədi daşımışdır [8, s.150]. Qeyd edək ki, etnoqrafik materiallara əsasən levirat nikah adətinə ötən əsrin ortalarına qədər daha çox təsadüf edilmişdir.

Etnoqrafik materiallara əsasən belə nəticəyə gəlmək olur ki, keçmişdə Azərbaycanda monoqam nikah forması daha çox əhalinin yoxsul təbəqəsi üçün xarakterik olmuşdur. Belə ailələrdə adətən ikikəbinlilik həyatın zəruri tələbi kimi yaranırdı. Yardımlı rayonu Honobaşıxlar kənd sakini Qafarova Fatma Xosrov qızının verdiyi məlumata görə, yoxsul ailə başçısı o zaman ikinci nikaha girirdi ki, birinci nikahdan övladı olmurdu. Nadir hallarda isə oğlan uşağı doğulmadıqda, ailə başçısı varislik ənənəsini davam etdirmək məqsədilə təkrar nikaha daxil olmağa məcbur olurdu. Belə





olduqda, adətən övladı olmayan qadın da ərinin təkrar nikaha daxil olmasına etiraz etməyərək ailəni tərk etmirdi. Çünki əksər hallarda belə qadınlar iqtisadi cəhətdən tamamilə kişidən asılı olduğu üçün onların ayrıca yaşaması çətin olurdu. Digər tərəfdən, uşağının olmaması səbəbindən belə qadının boşandıqdan sonra başqa birinə ərə getməsi də ehtimal edilmirdi [8, s.122]. Odur ki, belə hallarda adətən təkrar nikah birinci kəbinin pozulması ilə nəticələnmirdi. Ərinin ikinci nikahına görə, uşağı olmayan qadının evini tərk etməməsinə şərait yaradan səbəblərdən biri də kişinin ona həyat yoldaşı kimi dəyər verməsi idi. Halbuki, islam şəriəti belə hallarda kişiyə uşağı olmayan qadının təlaqını vermək ixtiyarı verirdi. Ümumiyyətlə, islam şəriəti zəruri şərtlər daxilində boşanma haqqını əsasən kişiyə vermişdir [2, s.167]. Lakin ənənəvi Azərbaycan ailəsində, əxlaq pozğunluğu istisna olmaqla, qalan digər səbəblərə görə arvadı boşamağa kişinin qüruru və bundan irəli gələrək, adət imkan vermirdi ki, bu da tamamilə islam-ailə etikası üçün səciyyəvi idi. Belə ki, islamda boşanma halı haram kimi qəbul edilməsə də, "...ailənin dağılmasına, boşanmaya çox pis baxılır və o, Allah yanında halal olan şeylərin ən pisi hesab edilir..." [13, s.171]. Odur ki, islam şəriəti hüquqi imkanlar yaratmaqla, bir növ insanları mümkün olduğu qədər ayrılmaqdan çəkindirməyə dəvət edir. Qurani-Kərimdə bu məsələyə işarə edən "Təlaq vermə (boşanma) iki dəfə mümkündür. Ondan sonra yaxşı dolanmaq (qadını yaxşı saxlamaq), ya da xoşluqla ayrılmaq gərəkdir" (əl-Bəqərə, 229) ayəsi və "Allahın halal buyurduqları arasında böşanmadan çox acığı gələn şey yoxdur" kimi islam mətnlərində yer almış çoxlu sayda hədislər bunu təsdiq edir [3, s.366]. Ona görə də, hesab etmək olar ki, xalq arasında belə dəyərlərin mövcud olmasında islam dininin də təsiri az olmamışdır.

Çox təsadüfi hallarda isə elə olurdu ki, övladı olmayan müdrik qadın öz istəyi ilə ərinin ikinci nikaha girməsinə razılıq verir və hətta ərinin ikinci arvaddan olan uşaqlarına öz doğma övladı kimi münasibət bəsləyərək, onların qayğısına qalırdı [15, s.310]. Buna baxmayaraq, günü qadınların ailə həyatında bərabər ixtiyar sahibi olmamaları və kişinin onlara münasibətdə tarazlığı qoruyub-saxlaya bilməməsi halları onların arasında qısqanclıq hisslərinin yaranmasına, bəzən də dava-dalaşa səbəb olurdu.

XX əsrin əvvəllərində professor Q.F.Çursin Azərbaycan ailəsində ikiarvadlılıqdan söz açaraq yazırdı: "...uşağın və əsasən də oğlan uşağının olmaması böyük dərd sayılır. ....Uşağı olmayan ər-arvad uşaq dilədikdə,

ilk növbədə əhd-peyman bağlayırdılar ki, bütün qalan həyatı boyu məhərrəmlik ayında kasıblara ehsan – şəkər, ət, düyü və s. verəcəklər" [20, s.24]. Əsərinin başqa bir yerində isə müəllif, əlavə edir ki, "çoxarvadlılıq əhalinin əksər hissəsində təsadüfi hallarda mövcud olardı. Əgər kişinin uşağı və ya oğlan uşağı olmasaydı, evdə əlavə işçi qüvvəsinə ehtiyac olanda ikinci arvad alırdı. Varlılar isə çox vaxt ikinci arvadı şöhrətpərəstlikdən alırdılar" [20, s.31]. Göründüyü kimi, müəllif ailədə kişinin ikinci nikaha daxil olmasının səbəblərini varisliyi davam etdirmək arzusu ilə yanaşı, bəzən də ailənin təsərrüfatdakı işçi qüvvəsinə olan ehtiyacının təmin edilməsi məqsədi kimi izah edir. Etnoqrafik materiallarimiz isə müəllifin bu fikirlərinə müəyyən əlavələr edilməsini tələb edir. Əvvəla, verilən məlumatdan aydın olur ki, ailədə sonsuzluq olduqda və ya oğlan uşağı doğulmadıqda, adət imkan verdiyi halda, kişi ikinci arvad almaq haqqında fikirləşmir və həyat yoldaşı ilə birgə övladlarının olacağına ümid bəsləyirlər. Deməli, əhali ailə-nikah münasibətlərində ilkin nikaha, ya da ümumiyyətlə, təkkəbinliliyə müqəddəs münasibət bəsləmişdir. Etnoqrafik materialların təhlili göstərir ki, nikaha belə münasibət ailənin bütövlük ideyası üzərində qurulan daxili münasibətlərində təzahür edirdi. Məhz, buna görə də, ailədə bu prinsipi qoruyub saxlamaq üçün əksər hallarda evə ikinci qadın gətirilmirdi. Məlumatçılara görə, bəzən ər və arvad yaxın qohumlardan birinin uşağını özlərinə övlad kimi götürməyə qərar verər, bəzən də ömürlərinin sonuna kimi sonsuz yaşayardılar. Ona görə də, Azərbaycan əhalisinin böyük əksəriyyətinin təkrar nikaha meylinin olmaması haqqında yaşlı məlumatçıların qeydlərini nəzərə alaraq, müəllifin əhali arasında poliqam nikahın üstün olmaması qənaətini doğru hesab etmək olar. Müəllifin ikiarvadlılığı doğuran səbəblərlə bağlı nöqteyi-nəzərinə gəldikdə isə, etnoqrafik materiallar bu fikrin elmi baxımdan tamamilə yanlış olduğunu təsdiq edir. Belə ki, etnoqrafik məlumatların təhlili göstərir ki, kişinin ikinci nikaha daxil olmasının səbəbləri təsərrüfat funksiyası ilə deyil, əsas etibarilə, varislik ənənəsini davam etdirmək arzusundan irəli gələrək, ailənin reproduktiv (nəsilartırma) funksiyası ilə bağlı olmuşdur. Doğrudur, ailə hər şeydən əvvəl təsərrüfat özəyi idi və buna görə də təsərrüfat funksiyası ailənin əsas funksiyalarından birini təşkil edirdi. Lakin Azərbaycan ailəsində tarixən birinci dərəcəli ideoloji prinsip övladlar dünyaya gətirmək olmuşdur ki, burada iki maraqlı amil diqqəti cəlb edir. Birinci amil ailədə nəslin davam etdirilməsinin sırf mənəvi tərəfi ilə bağlı idi. Yəni, ailə qurmuş şəxs ilk növbədə övladlar dünyaya gətirməyi özünün bəndəlik vəzifəsi hesab edirdi. Odur ki, müsəlman ailələrində çoxuşaqlılığa həmişə üstünlük verilmişdir. Ailədə övlada sahib olmaq zərurətini doğuran digər amil isə "dədə-baba yurdunu başsız qoymamaq" kimi özündə həm mənəvi, həm də maddi mülahizələrlə bağlı məzmunu ehtiva edirdi. Məhz, buna görə idi ki, keçmişdə hətta bir neçə qız övladı olduğu halda belə, oğlan uşağı olmayan ailələr "sonsuz" hesab edilərdi.





Məlumatçılara görə, adətən böyük patriarxal ailələrdə ailə ağsaqqalı həyat yoldaşı vəfat etdikdən sonra belə ikinci nikaha yol vermirdi və ömrünün sonuna kimi dul qalırdı. Belə ailələrdə böyük atanın ikinci dəfə evlənməsi ailə üzvləri tərəfindən hörmətsizlik kimi qəbul edilirdi. Ona görə də böyük ata ikinci nikahı arzulasa belə, çox zaman bunu dilə gətirməz və qız-gəlinlərinin qayğısı ilə dolanmağı üstün tutardı.

Etnoqrafik materiallar göstərir ki, ciddi səbəblər üzündən yol verilən poliqam nikah Azərbaycanda tarixən daha çox ikiarvadlılıq şəklində təzahür etmişdir. Lakin çöl materialları onu da təsdiq edir ki, poliqamiya başlıca olaraq varlı şəxslər və ruhanilər arasında yayılmaqla, nadir hallarda çoxarvadlılıq (ikidən artıq) formasında da təzahür etmişdir. Belə ki, bu qəbildən olan şəxslərin nikahı üç, bəzən də dördə çatırdı. Hər şeydən əvvəl, belə adamların çoxarvadlılığa maddi durumları imkan verirdi. Belə hallarda günü qadınlar arasında gərginliyin və dava-dalaşın baş verməməsi üçün, onları ayrı-ayrı evlərdə saxlayırdılar. Məlumatçıların dediklərinə görə, kişi ailə üzvləri və qohum-qonşularının qarşısında nüfuzunu qorumaqdan ötrü, çox vaxt uzaq kəndlərdə arvad alır və təkrar nikaha girdiyini hamıdan gizli saxlamağa çalışırdı. Deməli, bəzən ikidən artıq olan və əksər hallarda maddi imkandan irəli gələn belə poliqam nikahlarda kəsilmiş kəbin özündən əvvəlki kəbinlərin ləğv edilməsinə səbəb yaratmırdı.

Etnoqrafik və tarixi ədəbiyyatda müvəqqəti nikah forması olan siğə haqqındakı məlumatlara da rast gəlmək olur. Qeyd edək ki, siğə islam dinində müsəlmanın instikt və sosial ehtiyaclarının təmin edilməsini müəyyən səbəblər üzündən müvəqqəti evlənmə yolu ilə, şəriət qaydaları əsasında qanuniləşdirən aktdır. Müvəqqəti nikah şəriətdə "mütə" termini ilə ifadə olunur. Lakin tarixən xalq arasında belə nikah "siğə" adlandığına görə etnoqrafik ədəbiyyatda da məhz bu istilah qəbul edilmişdir. Şəriətdə

"siğə" istilahı isə müvəqqəti nikah üçün kəbin kəsilən zaman oxunan duanı bildirir. Qeyd edək ki, islamda "Qurban" bayramı mərasimində qurbanlığın kəsilməsindən qabaq oxunan dua da "siğə" adlanır.

Bir çox islam alimlərinə görə, şəriətdə mütənin müəyyən şərtlər daxilində qanuni bir əməl olduğuna Qurani-Kərimin "Nisa" surəsin 24-cü ayəsində işarə olunur: "Sahib olduğunuz (cariyələr) müstəsna olmaqla, ərli qadınları almaq Allahın yazısı (hökmü) ilə sizə haram edildi. Bunlardan başqaları isə namusla (iffətlə), zinakarlığa yol vermədən, mallarınızı sərf edərək evlənmək üçün sizə halal edildi. Mütə (müvəqqəti nikah) etdiyiniz qadınların mehrlərini lazımi qaydada verin. Mehr müəyyən edildikdən sonra aranızda razılaşdığınız şeydən ötrü sizə heç bir günah yazılmaz. Həqiqətən, Allah (hər şeyi) biləndir, hikmət sahibidir!". Ayədən göründüyü kimi, müvəqqəti nikah yalnız dul qadınlarla və müəyyən edilmiş müddətə nəzərdə tutulur. Şəriət qanunlarına görə qadın öz razılığını ərindən boşandıqdan azı qırx gün keçdikdən sonra verə bilər ki, buna "iddə müddəti" deyilir. Əgər mütəyə daxil olmaq istəyən əri ölmüş qadındırsa, bu müddət üç ay on gün, lakin bütün hallarda qadının təkrar olaraq mütəyə daxil olması üçün iddə müddətinin qırx beş gün davam etməsi vacib sayılır. Buna səbəb isə, bu müddət ərzində onun hamilə olub-olmamasının aşkara çıxmasıdır. Bu nikah formasına görə, müddəti və haqqı müəyyən edildikdən sonra, əvvəlcə qadının, daha sonra kişinin mütə duasını oxumaları ilə onlar arasında müəyyən olunmuş müddətə ər-arvad münasibətləri rəsmiləşdirilirdi [16, s.506]. Şəriətə görə mütə, bir günlükdən qeyri-müəyyən vaxta qədər nəzərdə tutula bilərdi. Şəriət qaydasının tələbi kimi kişi müəyyən edilən müddətdə özünə siğə etdirdiyi qadını bütün ərzaq və geyim ləvazimatları ilə təmin etməli idi. Ona görə də, bu nikah formasından daha çox varlı şəxslər istifadə edə bilirdi. Ümumiyyətlə, qeyd edək ki, şəriətə görə siğə uzaq səfərlərə çıxdığı üçün müəyyən vaxt ərzində ailəsindən uzaq düşmüş kişilər – tacirlər, zəvvarlar, o cümlədən daimi evlənmənin ağır və üzücü problemlərini üzərinə götürə bilməyən müsəlman gənclər və s. bu qəbildən olan şəxslər üçün məqbul hesab edilmişdir.

Müvəqqəti kəbinin XIX əsrdə Azərbaycanda "mütə" adı ilə mövcud olması haqqında dövrün bir sıra etnoqrafik səpkili rusdilli ədəbiyyatları da məlumatlar vermişdir [18, s.151]. Qeyd edək ki, siğə islam dininin yalnız şiə təriqətinə mənsub olan əhalisi arasında yayılmışdır. Digər təriqətlərdə





isə bu nikah forması şəriət nöqteyi-nəzərindən haram hesab edilir. Ona görə də, Azərbaycanın qeyri-şiələr yaşayan kəndlərində nikahın bu formasına rast gəlinməmişdir. Məsələn, Astara rayonuna aid etnoqrafik materiallar rayonun yalnız sünnülər yaşayan Pensər, Siyakü, Pələkəş, Astanakəran, Hamuşam, Motalayataq, Miki, Təngərüd və başqa kəndlərində keçmişdə müvəqqəti nikaha rast gəlinmədiyini göstərir. XX əsrin əvvəllərində Q.Çursin burada təqribən 25 belə kəndin mövcud olduğu haqqında məlumat vermişdir [20, s.21].

Yuxarıda qeyd etdiyimiz səbəblərə görə müvəqqəti nikaha daxil olan şəxslər qohum-qonşuların məzəmmətindən çəkinərək bu adəti gizli tutmağa çalışırdılar. Məhz, buna görə də etnoqrafik materiallar toplarkən bu nikah formasının yayılma dərəcəsini və hansı lokal adətlərlə həyata keçirilməsini öyrənmək baxımından çətinliklər qarşıya çıxır. Bəzi müəlliflər isə mütənin məhz şəhərlər üçün xarakterik olduğunu və adətən kənd yerlərində rast gəlinmədiyini qeyd edirlər [17, s.15]. Belə bir mülahizə o baxımdan doğrudur ki, əhalisi arasında kollektivçilik münasibətlərinin xeyli zəif olduğu şəhər yerləri siğə nikahı üçün əlverişli sayılırdı. Verilən məlumatlar onu da deməyə əsas verir ki, nisbətən imkanlı olan kəndli kişilər də siğə üçün adətən şəhər yerlərini münasib bilirdilər.

Beləliklə, aparılan tədqiqat nəticəsində aydın oldu ki, XIX əsrdə Azərbaycanda nikah münasibətlərində əsasən təkkəbinliliyə əsaslanan monoqam nikah forması üstünlük təşkil etmişdir. Bunu etnoqrafik və tarixi ədəbiyyatda verilən məlumatlar tamamilə təsdiq edir. Eyni zamanda, belə nəticəyə gəlmək olur ki, islamaqədərki dövrlərdə olduğu kimi, Orta əsrlərin ailə məişətində də çoxkəbinlilik əksər hallarda ailə mənafeyinə, əsasən, zidd şəkildə həyata keçirilmiş və nəticə etibarilə, islam, Azərbaycanda poliqam nikahın yalnız hüquqi şərtlərində nəzərə alınmış, onun dini-mənəvi mahiyyətinin zəruri tələblərinin formalaşması üçün isə həlledici amilə çevrilə bilməmişdir.

## İSTİFADƏ OLUNMUŞ ƏDƏBİYYAT

1. Bünyadova Ş.T. Orta əsr Azərbaycan ailəsi. Bakı, "Elm", 2012.
2. Əliyev R. İslamda ailə və nikah münasibətləri. Bakı, "İrşad", 2003.
3. Ənsariyan H. İslamda ailə quruluşu. (Tərcümə edən M.Sayılov), Qum, 2006.
4. Həvilov H.A. Azərbaycan etnoqrafiyası (oçerklər). Bakı, "Elm", 1991.

5. Kalankatuklu M. Albaniya tarixi (Müqəddimə, tərcümə, qeyd və şərhlər akad. Z.Bünyadovundur). Bakı, "Elm", 1993.
6. Kitabi-Dədə Qorqud. (Dastan. Tərcümə və müqəddimə H.Araslınındır). Bakı, "Azərnəşr", 1962.
7. Koroğlu. Bakı, "Gənclik", 1982.
8. Qeybullayev Q.Ə. Azərbaycanlılarda ailə və nikah (XIX əsr və XX əsrin əvvəlləri). Tarixi etnoqrafik tədqiqat. 2 cildlik, I hissə, Bakı, "Elm", 1994.
9. Qeybullayev Q.Ə. Azərbaycanda bəzi nikah adətlərinə dair (Quba r-nun materialları əsasında)//Azərb. SSR EA Məruzələri, Bakı, "Elm", 1964, X c. № 11.
10. Quliyev H.A. Azərbaycanda ailə məişətinin bəzi məsələləri (keçmiş və müasir dövr). Bakı, "Elm", 1986.
11. Qurani-Kərim. Bakı, "Azərnəşr", 1991.
12. Məhəmməd Füzuli. Əsərləri, 6 cilddə, II c., Bakı, "Şərq-Qərb", 2005.
13. Məmmədəliyev V.M., Məmmədəliyeva Q.T. İslamda nikah və ailə etikası. Bakı Universitetinin Xəbərləri, №3 (humanitar elmlər seriyası), "İlahiyyat", 2009.
14. Nizami Gəncəvi. Xosrov və Şirin. Bakı, "Yazıçı", 1983.
15. Rəcəbli Q. Ailə və ailə məişəti. /Azərbaycan etnoqrafiyası: 3 cilddə, II c., Bakı, "Şərq-Qərb", 2007.
16. Seyyidzadə M. İslami söhbətlər. II hissə, Bakı: Elm, 2002.
17. Асадов А. И. Семейное право. Баку: Изд-во АГУ, 1959.
18. Дубровин Н.Ф. История войны и владычества русских на Кавказе, Том I, кн.2, СПб, 1871.
19. Ткешелов М.И. Азербайджанские татары. – Сборник материалов по этнографии, вып.III, Москва, 1888.
20. Чурсин Г.Ф. Талыши (Этнографические заметки). Известия Кавказского историко-археологического Института, Тифлис, 1926, т.IV.

## THE ROLE OF ISLAM ON THE TRADITIONAL FORMS OF MARRIAGE IN AZERBAIJAN
## SUMMARY

Traditional domestic relations in Azerbaijani family have been developed on the basis of historical traditions of our nation and under the influence of islam. The article studies the traditional ways of marriage on the basis of ethnographic and historical sources. It becomes clear that the adoption of islam has led to major changes in social relations and influenced domestic relations as well. Although the monogamy was dominant among the population, sometimes we noticed the polygamy.

To come to conclusion, it becomes clear that the polygamy was popular among the rich men and in most cases, the moral conditions and justice principles had not been taken into account.





## РОЛЬ ИСЛАМА В ТРАДИЦИОННЫХ ФОРМАХ БРАКОСОЧЕТАНИЯ В АЗЕРБАЙДЖАНЕ
## РЕЗЮМЕ

Традиционные семейно-брачные отношения в азербайджанской семье формировались и развивались под влиянием исламской религии и исторических традиций нашего народа. В статье при рассмотрении традиционных форм бракосочетания в Азербайджане были использованы этнографические материалы и историческая литература. В результате исследования выясняется, что принятие исламской религии в Азербайджане серьезно повлияло на семейно-брачные отношения, поскольку радикально стали меняться общественно-социальные отношения. Основанная на однобрачности моногамная форма брака теперь занимало господствущее место среди населения, однако в некоторых случаях можно было встретить также и полигамию.

Вывод автора заключается в том, что хотя распространенная среди богатых полигамия основывалась на исламских канонах шариата, однако в большинстве случаев не учитываются моральные условия и принципы справедливости, которые требуются исламской религией при осуществлении брака.